# Şöbə rəisi (Arxiv işlərinin aparılması üzrə) vəsifəsi üzrə test tapşırıqları

1. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən arxiv nədir?

A) Arxiv sənədlərinin məcmusu, onların komplektləşdirilməsini, uçotunu, mühafizəsini və istifadəsini həyata keçirən arxiv təşkilatları və ya idarələrin, müəssisələrin struktur bölmələridir

B) Mühafizə edilən və ya edilməli olan, informasiya daşıyıcısının növündən asılı olmayaraq dövlət, cəmiyyət və ya öz mülkiyyətçisi üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəddir

C) Arxiv sənədlərinə sahiblik və istifadə hüququnu tam həcmdə, onlar üzərində sərəncamı qanunvericilikdə müəyyən olunmuş həddə həyata keçirən subyektdir

D) Arxivlərin komplektləşdirilməsi, mühafizəsi, uçotu və arxiv xidmətinin təşkili məqsədilə tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin məcmusudur

E) Xalqın maddi və mənəvi həyatını əks etdirən, tarixi, elmi, iqtisadi, siyasi, sosial və mədəni dəyəri olan, Azərbaycan xalqının mədəni irsinin ayrılmaz hissəsi hesab edilən sənədlərin məcmusudur

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

2. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq, vətəndaşlıq vəziyyəti aktları, notarial fəaliyyət, məhkəmə işləri və şəxsi heyət barədə sənədlər üçün dövlət idarə, müəssisə və təşkilatlarında yaradılan arxivlərdə müvəqqəti mühafizə müddəti nə qədər müəyyənləşdirilmişdir?

A) 5 il

B) 50 il

C) 15 il

D) 75 il

E) 25 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

3. Xüsusi əhəmiyyətli məlumatlar üçün tərkibində dövlət sirri olan arxiv sənədlərindən istifadəyə onların məxfiləşdirildiyi gündən neçə il sonra icazə verilir?

A) İyirmi

B) Otuz

C) Yetmiş beş

D) On

E) İyirmi beş

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

4. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq, respublika dövlət hakimiyyət orqanlarının sənədləri üçün dövlət idarə, müəssisə və təşkilatlarında yaradılan arxivlərdə müvəqqəti mühafizə müddəti nə qədər müəyyənləşdirilmişdir?

A) 5 il

B) 50 il

C) 15 il

D) 75 il

E) 25 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

5. Qanunvericiliyə görə arxiv sənədlərinin daimi mühafizəsi nə deməkdir?

A) Arxiv sənədlərinin arxivdə, muzeydə və kitabxanada müddətsiz mühafizəsidir

B) Arxiv sənədlərinin xüsusi dövlət orqanları tərəfindən  mühafizəsidir

C) Arxiv sənədlərinin dövlət idarə, müəssisə və təşkilatları tərəfindən müddətsiz mühafizəsidir

D) Arxiv sənədlərinin xüsusi kod adı altında müddətsiz mühafizəsidir

E) Arxiv sənədlərinin dövlət və yerli özünüidarə orqanları tərəfindən müddətsiz mühafizəsidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

6. Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə qaydaları hansı subyekt tərəfindən təsdiq olunan əsasnamə ilə müəyyən edilir?

A) Müəssisə rəhbərliyi

B) Müvafiq icra hakimiyyəti orqanı

C) Arxiv müdiri

D) Məhkəmə

E) Yerli özünüidarəetmə orqanı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

7. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq, rayon və şəhər hakimiyyət orqanlarının sənədləri üçün dövlət idarə, müəssisə və təşkilatlarında yaradılan arxivlərdə müvəqqəti mühafizə müddəti nə qədər müəyyənləşdirilmişdir?

A) 5 il

B) 10 il

C) 15 il

D) 3 il

E) 25 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

8. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq, yerli özünü idarəetmə orqanlarının sənədləri üçün dövlət idarə, müəssisə və təşkilatlarında yaradılan arxivlərdə müvəqqəti mühafizə müddəti nə qədər müəyyənləşdirilmişdir?

A) 25 il

B) 3 il

C) 15 il

D) 10 il

E) 5 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

9. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq, elmi-texniki sənədlər üçün dövlət idarə, müəssisə və təşkilatlarında yaradılan arxivlərdə müvəqqəti mühafizə müddəti praktiki əhəmiyyəti baxımından maksimum neçə il müəyyənləşdirilmişdir?

A) 3 il

B) 15 il

C) 10 il

D) 5 il

E) 20 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

10. Məxfi məlumatlar üçün tərkibində dövlət sirri olan arxiv sənədlərindən istifadəyə onların məxfiləşdirildiyi gündən neçə il sonra icazə verilir?

A) İyirmi

B) Otuz

C) Yetmiş beş

D) On

E) İyirmi beş

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

11. Arxivlərin komplektləşdirilməsi, mühafizəsi, uçotu və arxiv xidmətinin təşkili necə adlanır?

A) Arxiv işi

B) Arxiv sənədi

C) Arxivin mühafizəsi

D) Arxiv

E) Arxiv fondu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

12. Arxiv sənədləri üzərində sahiblik, istifadə və sərəncam hüququna malik olan subyekt kimdir?

A) Arxivçi

B) Arxiv müdiri

C) Arxiv sənədlərinin mülkiyyətçisi

D) Arxiv işini təşkil edən

E) Arxiv üzrə cavabdeh şəxs

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

13. Müvafiq qanunvericiliyə görə vətəndaşların şəxsi və ailə həyatı haqqında informasiya daşıyıcıları olan arxiv sənədlərinin istifadə edilməsinə, qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, nə vaxt icazə verilir?

A) Həmin sənədlərin yaranmasından 75 il sonra və ya şəxsin vəfatından 25 il sonra və ya ölüm faktı müəyyənləşdirilməyibsə, həmin şəxsin doğum tarixindən 100 il sonra

B) Həmin sənədlərin yaranmasından 75 il sonra və ya şəxsin vəfatından 30 il sonra və ya ölüm faktı müəyyənləşdirilməyibsə, həmin şəxsin doğum tarixindən 105 il sonra

C) Həmin sənədlərin yaranmasından 75 il sonra və ya şəxsin vəfatından 30 il sonra və ya ölüm faktı müəyyənləşdirilməyibsə, həmin şəxsin doğum tarixindən 100 il sonra

D) Həmin sənədlərin yaranmasından 75 il sonra və ya şəxsin vəfatından 30 il sonra və ya ölüm faktı müəyyənləşdirilməyibsə, həmin şəxsin doğum tarixindən 110 il sonra

E) Həmin sənədlərin yaranmasından 75 il sonra və ya şəxsin vəfatından 25 il sonra və ya ölüm faktı müəyyənləşdirilməyibsə, həmin şəxsin doğum tarixindən 110 il sonra

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

14. Vətəndaşların şəxsi və ailə həyatı haqqında informasiya daşıyıcıları olan arxiv sənədlərinin istifadə edilməsinə, qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa, onların doğum tarixindən nə qədər müddət keçdikdən sonra icazə verilir?

A) 75 il

B) 50 il

C) 100 il

D) 110 il

E) 90 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

15. Tam məxfi məlumatlar üçün tərkibində dövlət sirri olan arxiv sənədlərindən istifadəyə onların məxfiləşdirildiyi gündən neçə il sonra icazə verilir?

A) İyirmi

B) Otuz

C) Yetmiş beş

D) On

E) İyirmi beş

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

16. Tərkibində dövlət sirri olan arxiv sənədlərindən istifadə müddəti hansı orqanın rəyi ilə uzadıla bilər?

A) Müəssisə rəhbərliyi

B) Müvafiq icra hakimiyyəti orqanı

C) Arxiv müdiri

D) Məhkəmə

E) Yerli özünüidarəetmə orqanı

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

17. Arxiv işi sahəsində dövlətin vəzifələri hansılardır?
1. Arxiv işinin təşkilinin vahid prinsiplərinin müəyyən olunması
2. Xarici ölkələrin arxivlərində saxlanılan sənədlərə xüsusi nəzarət edilməsi

3. Arxivlərin maddi-texniki bazasının möhkəmləndirilməsi
4. Arxivlərin qorunmasına və inkişafına dövlət təminatı, arxiv kadrlarının hazırlanması
5. Arxiv münasibətlərinə daxil olan subyektlərin hüquq və vəzifərinin müəyyənləşdirilməsi
6. Arxiv fondu sənədlərinin komplektləşdirilməsi, uçotu, mühafizəsi və onlardan istifadə olunması
7. Xarici ölkələrin arxivlərində saxlanılan bütün sənədlərin AR dövlət arxivlərinə gətirilməsi

A) 3, 4, 5

B) 2, 3, 7

C) 1, 3, 5

D) 2, 4, 6

E) 1, 3, 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

18. Azərbaycan Respublikasında qanunvericilikdə müəyyən olunmuş qaydada arxiv yaratmaq hüququna malik olan subyektlər (tam cavab):
1. Əcnəbilər
2. İctimai təşkilatlar
3. Vətəndaşlar
4. Dövlət təşkilatları
5. Dini təşkilatlar
6. Vətəndaşlığı olmayan şəxslər

A) 1, 3, 6

B) 2, 4, 5

C) 1, 3, 4

D) 2, 3, 4, 5

E) 1, 2, 3, 4, 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

19. Ölkəmizdə hansı sahədə fəaliyyət göstərən dövlət orqanlarının arxiv fondlarının mühafizəsi həmin orqanların özləri tərəfindən həyata keçirilir?
1. Gömrük xidməti
2. Xarici işlər
3. Sosial təminat
4. Miqrasiya xidməti
5. Fövqəladə hallar
6. Məhkəmə
7. İqtisadi məsələlər
8. Müdafiə
9. Vergi xidməti
10. Xarici kəşfiyyat

A) 2, 5, 6, 8, 10

B) 1, 4, 5, 8, 9

C) 2, 4, 5, 8, 10

D) 1, 2, 4, 6, 8

E) 2, 4, 5, 6, 9

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

20. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na görə arxivlər mülkiyyət formasından asılı olaraq hansı vəsaitlərin hesabına maliyyələşdirilir?
1) Dövlət büdcəsinin
2) Mülkiyyətçinin
3) Yerli büdcənin

A) Yalnız 2

B) 1,2,3

C) Yalnız 1

D) 1.3

E) 1.2

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

21. Mühafizə edilən və ya edilməli olan, informasiya daşıyıcısının növündən asılı olmayaraq dövlət, cəmiyyət və ya öz mülkiyyətçisi üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəd:

A) Arxiv işi

B) Arxiv sənədi

C) Arxivin mühafizəsi

D) Arxiv

E) Arxiv fondu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

22. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin məcmusu necə adlanır?

A) Arxiv işi

B) Arxiv sənədi

C) Arxivin mühafizəsi

D) Arxiv

E) Arxiv fondu

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

23. Dövlət mülkiyyətində olan arxiv fondları və arxiv sənədləri Milli arxiv fondunun hansı hissəsini təşkil edir?

A) Ümumi hissəsini

B) Əsas hissəsini

C) Dövlətə məxsus hissəsini

D) Xüsusi hissəsini

E) Qeyri-dövlət hissəsini

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

24. Dövlət mülkiyyətində olmayan arxiv fondları və arxiv sənədləri Milli arxiv fondunun hansı hissəsini təşkil edir?

A) Qeyri-dövlət hissəsini

B) Ümumi hissəsini

C) Xüsusi hissəsini

D) Dövlətə məxsus hissəsini

E) Əlavə hissəsini

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

25. Növündən, yarandığı və saxlandığı yerdən və mülkiyyət formasından asılı olmayaraq, xalqın maddi və mənəvi həyatını əks etdirən, tarixi, elmi, iqtisadi, siyasi, sosial və mədəni dəyəri olan, Azərbaycan xalqının mədəni irsinin ayrılmaz hissəsi hesab edilən sənədlərin məcmusu:

A) Arxiv işi

B) Arxiv sənədi

C) Milli arxiv fondu

D) Arxiv

E) Arxivin mühafizəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

26. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na görə arxiv sənədlərinin daimi mühafizəsi ilə müvəqqəti mühafizəsi arasında nə kimi fərq vardır?

A) Arxiv sənədlərinin daimi mühafizəsi həmin sənədlərin dövlət və yerli özünüidarə orqanları, dövlət idarə, müəssisə və təşkilatları tərəfindən müddətsiz mühafizəsi, arxiv sənədlərinin müvəqqəti mühafizəsi isə dövlət və yerli özünüidarə orqanları, dövlət idarə, müəssisə və təşkilatları tərəfindən arxiv sənədlərinin müddətsiz mühafizəsidir

B) Arxiv sənədlərinin daimi mühafizəsi həmin sənədlərin arxivdə, muzeydə və kitabxanada müddətsiz mühafizəsi, arxiv sənədlərinin müvəqqəti mühafizəsi isə dövlət və yerli özünüidarə orqanları, dövlət idarə, müəssisə və təşkilatları tərəfindən arxiv sənədlərinin müvafiq qanunda nəzərdə tutulmuş müddətdə mühafizəsidir

C) Arxiv sənədlərinin daimi mühafizəsi tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin qorunmasını əhatə etdiyi halda, arxiv sənədlərinin müvəqqəti mühafizəsi müəyyənləşdirilmiş qaydada sənəd abidəsi kateqoriyasına aid edilmiş nadir və ya xüsusi tarixi-mədəni dəyəri olan arxiv sənədlərinin qorunması ilə məhdudlaşır

D) Arxiv sənədlərinin daimi mühafizəsi həmin sənədlərin məcmusu, onların komplektləşdirilməsini, uçotunu, mühafizəsini və istifadəsini həyata keçirən arxiv təşkilatları tərəfindən müddətsiz mühafizəsi, arxiv sənədlərinin müvəqqəti mühafizəsi isə onların arxivdə, muzeydə və kitabxanada müəyyən müddətdə mühafizəsidir

E) Arxiv sənədlərinin daimi mühafizəsində arxiv sənədlərinin mülkiyyətçisi arxiv sənədləri üzərində tam şəkildə sahiblik, istifadə və sərəncam hüququna malik olsa da, arxiv sənədlərinin müvəqqəti mühafizəsində mülkiyyətçi yalnız sahiblik və istifadə hüququnu tam həcmdə, sərəncam hüququnu isə qanunvericilikdə müəyyən olunmuş həddə həyata keçirir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

27. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən arxiv sənədlərinin mülkiyyətçisi ilə sahibi arasında nə kimi fərq vardır?

A) Arxiv sənədlərinin mülkiyyətçisi arxiv sənədləri üzərində sahiblik, istifadə və sərəncam hüququna tam şəkildə malik olduğu halda, arxiv sənədlərinin sahibi həmin sənədlərə

münasibətdə yalnız sahiblik və istifadə hüququnu həyata keçirir ki, bu da müəyyən hallarda müvafiq qanunvericiliklə məhdudlaşır

B) Arxiv sənədlərinin mülkiyyətçisi həmin sənədlərin komplektləşdirilməsi, mühafizəsi, uçotu və arxiv xidmətinin təşkili ilə məşğul olduğu halda, arxiv sənədlərinin sahibi arxiv sənədlərinin arxivdə, muzeydə və kitabxanada müddətsiz mühafizəsinə rəhbərliyi həyata keçirir

C) Arxiv sənədlərinin mülkiyyətçisi tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin subyekti olduğu halda, arxiv sənədlərinin sahibi müəyyənləşdirilmiş qaydada sənəd abidəsi kateqoriyasına aid edilmiş nadir və ya xüsusi tarixi-mədəni dəyəri olan arxiv sənədlərinin subyekti kimi çıxış edir

D) Arxiv sənədlərinin mülkiyyətçisi arxiv sənədləri üzərində sahiblik, istifadə və sərəncam hüququna malik olduğu halda, arxiv sənədlərinin sahibi arxiv sənədlərinə sahiblik və istifadə hüququnu tam həcmdə, onlar üzərində sərəncamı isə qanunvericilikdə müəyyən olunmuş həddə həyata keçirir

E) Arxiv sənədlərinin mülkiyyətçisi dövlət mülkiyyətində olan arxiv fondları və arxiv sənədlərinin mülkiyyətçisi olduğu halda, arxiv sənədlərinin sahibi dövlət mülkiyyətində olmayan arxiv fondları və arxiv sənədlərinin yalnız qanunvericilikdə müəyyən olunmuş çərçivədə sahibi hesab edilir

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

28. Ölkəmizdə hansı müəssisələrə məxsus arxivlərin dövlət arxiv fondunun sənədləri ilə komplektləşdirilməsi qadağandır?
1. Bələdiyyələrə
2. Siyasi partiyalara
3. Dini birliklərə
4. İctimai birliklərə
5. Muzeylərə
6. Kitabxanalara

A) 1, 2, 3, 4, 5, 6

B) 2, 3, 4, 5, 6

C) 3, 4, 5, 6

D) 4, 5, 6

E) 5, 6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

29. Dövlət arxiv fondu hüquqi və fiziki şəxslərdən hansı hüquqi konstruksiyalar yolu ilə də formalaşdırıla bilər?
1. Daşınmaz əmlakın alğı-satqısı
2. Vərəsəlik
3. Dəyişdirmə
4. Bağışlama
5. İcarə
6. Etibarnamə
7. Qiymətli sənədlərin satın alınması
8. Lizinq

A) 2, 3, 4

B) 4, 7, 8

C) 2, 4, 7

D) 4, 5, 6

E) 1, 3, 7

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

30. Arxiv işinin idarə olunması ilə bağlı düzgün bəndləri müəyyənləşdirin.
1. Milli arxiv fondu sənədlərinin istifadəsi zamanı müəlliflik hüququ barədə qanunvericiliyin tələbləri yerinə yetirilməlidir
2. Azərbaycan Respublikasında arxiv işinə dövlət idarəetməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir
3. Təsadüfən aşkar edilmiş və ya tapılmış arxiv sənədləri və sənəd kolleksiyaları dövlət qeydiyyatına alınmır
4. Dövlət arxivləri işçilərinin əmək haqları arxiv işi sahəsində müvafiq icra hakimiyyəti orqanında çalışan işçilərin vəzifə maaşlarına bərabər tutulur
5. Mühafizə müddəti daimi olan dövlət arxiv fondu sənədlərindən istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur

6. Azərbaycan Respublikasının bütün hüquqi və fiziki şəxsləri dövlət arxiv fondu sənədlərindən istifadə etmək hüququna malikdirlər

A) 1, 2, 4, 6

B) 2, 3, 4, 5

C) 1, 2, 3, 4

D) 2, 4, 5, 6

E) 1, 3, 4, 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

31. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq, kino, foto, fono sənədlər və videoyazılar üçün dövlət idarə, müəssisə və təşkilatlarında yaradılan arxivlərdə müvəqqəti mühafizə müddəti nə qədər müəyyənləşdirilmişdir?

A) 25 il

B) 3 il

C) 15 il

D) 10 il

E) 5 il

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

32. Azərbaycan Respublikasında qeyri-dövlət arxiv fondlarının komplektləşdirilməsinə, mühafizəsinə və onlardan istifadə edilməsinə yardım göstərir:

A) Fiziki şəxslər

B) Bələdiyyə

C) Hüquqi şəxslər

D) Beynəlxalq təşkilatlar

E) Dövlət

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

33. Arxiv işinin idarə olunması ilə bağlı aşağıdakı müddəalardan hansı biri doğrudur?

A) Qeyri-dövlət arxiv fondunun sənədlərindən onların mülkiyyətçilərinin və istifadəçilərinin birgə razılığı ilə istifadə oluna bilər

B) Dövlət büdcəsindən maliyyələşdirilən arxivlərin qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən daxil olan vəsaitlərin yarısı dövlət büdcəsinə köçürülür

C) Təsadüfən aşkar edilmiş və ya tapılmış arxiv sənədləri və sənəd kolleksiyaları heç bir halda dövlət qeydiyyatına alınmır

D) Qeyri-dövlət arxiv fondlarının komplektləşdirilməsinə, mühafizəsinə və onlardan istifadə edilməsinə dövlət yardım göstərir

E) Milli arxiv fondu sənədlərinin istifadəsi zamanı əmtəə nişanları və coğrafi göstəricilər barədə qanunvericiliyin tələbləri yerinə yetirilməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

34. Milli arxiv fondu sənədlərinin uçotu və mühafizəsi ilə bağlı aşağıdakı müddəalardan hansı doğru deyil?

A) Qeyri-dövlət arxiv fondunun mülkiyyətçiləri arxiv fondlarının mühafizəsi üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydalara əməl etməlidirlər

B) Vətəndaşların tarixi və mədəni dəyəri olan sənəd fondları və kolleksiyaları Milli arxiv fondunun külliyyatına onların razılığı ilə daxil edilə bilər

C) Milli arxiv fondunun sənədləri mülkiyyət formasından və mühafizə yerindən asılı olmayaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınır

D) Dövlət mülkiyyətində olan arxiv fondunun sənədləri, dövlət arxivlərinin və onların filiallarının, rayon və şəhər arxivlərinin binaları özəlləşdirilə bilməz

E) Ləğv edilmiş dövlət idarə, müəssisə və təşkilatlarının varisi olmadıqda onların arxiv fondları qanunvericilikdə müəyyən edilmiş qaydada məhv edilir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

35. Milli arxiv fondunun tərkibi və təşkili ilə bağlı aşağıdakı müddəalardan hansı doğrudur?

A) Yaranma mənbəyindən və mülkiyyət formasından asılı olaraq, Azərbaycan Respublikasındakı arxiv sənədləri Milli arxiv fonduna daxil edilir

B) Gündəliklər, memuarlar, məktublar və şəxsi xarakterli digər sənədlər milli arxiv fonduna daxil edilən sənədlərə aiddir

C) Milli arxiv fondu sənədlərinin dəyərinin ekspertizası keçirilmədikdə və ya ekspertizanın aparılma qaydaları pozulduqda sənədlər dərhal məhv olunur

D) Azərbaycan Respublikasının keçmiş Prezidentinin rəsmi yazışma sənədlərinin surətlərindən ibarət arxiv indiki Prezidentin sərəncamında saxlanılır

E) Kino, foto, fono, video materialları, dizayn işləmələri və memarlıq layihələri milli arxiv fonduna daxil edilən sənədlərə aid deyil

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

36. Arxiv fondlarının zənginləşdirilməsi, arxiv xidmətinin təkmilləşdirilməsi və arxiv işi üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsində iştirak edə bilən subyektlər:
1. Vətəndaşlığı olmayan şəxslər
2. Xaricdə yerləşən hüquqi şəxslər
3. Səfirliklər
4. Dövlət idarə, müəssisə və təşkilatları
5. Vətəndaşlar
6. Beynəlxalq təşkilatlar
7. Əcnəbilər
8. Konsulluqlar
9. Xarici ölkələrin vətəndaşları olan azərbaycanlılar

A) 1, 4, 5, 7, 9

B) 2, 3, 4, 6, 8

C) 1, 2, 5, 7, 9

D) 2, 4, 5, 6, 9

E) 1, 3, 4, 5, 8

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

37. Müəyyənləşdirilmiş qaydada sənəd abidəsi kateqoriyasına aid edilmiş nadir və ya xüsusi tarixi-mədəni dəyəri olan arxiv sənədi necə adlanır?

A) Arxiv işi

B) Dövlət arxivi

C) Sənəd abidəsi

D) Arxiv fondu

E) Qeyri-dövlət arxivi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

38. Fiziki şəxslərin sənəd fondları mülkiyyətin hansı növünə aid edilir?

A) Şəxsi mülkiyyət

B) Dövlət mülkiyyəti

C) Ümumi mülkiyyət

D) Bələdiyyə mülkiyyəti

E) Sosial mülkiyyət

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

39. Dövlət arxivləri işçilərinin sosial müdafiəsi hansı normativ hüquqi akta əsasən həyata keçirilir?

A) "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununa

B) "Müəlliflik hüququ haqqında" Azərbaycan Respublikası Qanununa

C) "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununa

D) “Mədəniyyət haqqında” Azərbaycan Respublikası Qanununa

E) "Sosial müdafiə, təminat və mühafizə haqqında" Azərbaycan Respublikası Qanununa

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

40. Ölkəmizdə arxiv işini həyata keçirən dövlət müəssisəsi:

A) Bələdiyyə arxivi

B) Dövlət arxivi

C) Şəxsi arxiv

D) Qeyri-dövlət arxivi

E) Xüsusi arxiv

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

41. Mülkiyyət formasından asılı olmayaraq, arxiv sənədlərinin mülkiyyətçilərinin hüquqlarına hansı subyekt təminat verir?

A) Fiziki şəxslər

B) Dövlət

C) Beynəlxalq təşkilat

D) Hüquqi şəxslər

E) Bələdiyyə

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

42. Azərbaycan Respublikasında qanunvericilikdə müəyyən olunmuş qaydada arxiv yaratmaq hüququna malik olan subyektlərdən hansı düzgün göstərilməmişdir?
1. Əcnəbilər
2. İctimai təşkilatlar
3. Vətəndaşlar
4. Dövlət təşkilatları
5. Dini təşkilatlar
6. Vətəndaşlığı olmayan şəxslər

A) 2, 5

B) 1, 5

C) 3, 6

D) 2, 4

E) 1, 6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

43. Arxiv işinin idarə olunması ilə bağlı yanlış bəndləri müəyyənləşdirin.
1. Milli arxiv fondu sənədlərinin istifadəsi zamanı müəlliflik hüququ barədə qanunvericiliyin tələbləri yerinə yetirilməlidir
2. Azərbaycan Respublikasında arxiv işinə dövlət idarəetməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir
3. Təsadüfən aşkar edilmiş və ya tapılmış arxiv sənədləri və sənəd kolleksiyaları dövlət qeydiyyatına alınmır
4. Dövlət arxivləri işçilərinin əmək haqları arxiv işi sahəsində müvafiq icra hakimiyyəti orqanında çalışan işçilərin vəzifə maaşlarına bərabər tutulur
5. Mühafizə müddəti daimi olan dövlət arxiv fondu sənədlərindən istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur

6. Azərbaycan Respublikasının bütün hüquqi və fiziki şəxsləri dövlət arxiv fondu sənədlərindən istifadə etmək hüququna malikdirlər

A) 1, 5

B) 2, 6

C) 3, 5

D) 4, 6

E) 3, 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

44. Müvafiq qanunvericiliyə görə arxiv işi sahəsində hansılar dövlətin vəzifələri hesab oluna bilməz?
1. Arxiv işinin təşkilinin vahid prinsiplərinin müəyyən olunması
2. Xarici ölkələrin arxivlərində saxlanılan sənədlərə xüsusi nəzarət edilməsi
3. Arxivlərin maddi-texniki bazasının möhkəmləndirilməsi
4. Arxivlərin qorunmasına və inkişafına dövlət təminatı, arxiv kadrlarının hazırlanması
5. Arxiv münasibətlərinə daxil olan subyektlərin hüquq və vəzifərinin müəyyənləşdirilməsi
6. Arxiv fondu sənədlərinin komplektləşdirilməsi, uçotu, mühafizəsi və onlardan istifadə olunması
7. Xarici ölkələrin arxivlərində saxlanılan bütün sənədlərin AR dövlət arxivlərinə gətirilməsi

A) 3, 4, 5, 6

B) 2, 3, 6, 7

C) 1, 3, 5, 6

D) 2, 5, 6, 7

E) 1, 3, 4, 5

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

45. Azərbaycan Respublikasında bir sıra müəssisələrə məxsus arxivlərin dövlət arxiv fondunun sənədləri ilə komplektləşdirilməsi qadağandır. Həmin müəssisələrdən hansılar düzgün qeyd olunmamışdır?
1. Bələdiyyələr
2. Siyasi partiyalar
3. Dini birliklər
4. İctimai birliklər
5. Muzeylər
6. Kitabxanalar

A) 1, 3

B) 2, 3

C) 1, 2

D) 5, 6

E) 2, 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

46. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na görə dövlət arxiv fondu hüquqi və fiziki şəxslərdən müəyyən hüquqi konstruksiyalar yolu ilə də formalaşdırıla bilər. Aşağıda qeyd olunan həmin formalaşdırılma yollarından hansılar doğru deyil?
1. Daşınmaz əmlakın alğı-satqısı
2. Vərəsəlik
3. Dəyişdirmə
4. Bağışlama
5. İcarə
6. Etibarnamə
7. Qiymətli sənədlərin satın alınması
8. Lizinq

A) 1, 3, 5, 6, 8

B) 2, 4, 5, 6, 8

C) 1, 3, 4, 6, 7

D) 1, 2, 4, 6, 7

E) 2, 3, 4, 6, 8

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

47. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən milli arxiv fondunun külliyyatını hazırlayan subyekt kimdir?

A) Xüsusi arxiv

B) Bələdiyyə arxivi

C) Dövlət arxivi

D) Nadir arxiv

E) Qeyri-dövlət arxivi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

48. Arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv fondunun tərkibinə daxil edilməsi və bu tərkibdən çıxarılması və ya məhv edilməsi qaydası müəyyən edilir:

A) Ekspert komissiyası tərəfindən

B) Yerli özünüidarəetmə orqanı tərəfindən

C) İdarənin müvafiq struktur bölməsi tərəfindən

D) Yoxlama komissiyası tərəfindən

E) Müvafiq icra hakimiyyəti orqanı tərəfindən

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

49. Dövlət arxiv fondunun sənədləri hansı müqavilələrin obyekti ola bilməz və yalnız qanunvericilikdə müəyyən olunmuş qaydada istifadəyə verilə bilər?

A) Alqı-satqı, yaxud mülkiyyətdən istifadəni nəzərdə tutan müqavilələrin

B) Dəyişdirmə, bağışlama, lizinq və vərəsəlik müqavilələrinin

C) Mülkiyyət formasının dəyişdirilməsini və ondan istifadəni nəzərdə tutan müqavilələrin

D) Alqı-satqı, yaxud mülkiyyət formasının dəyişdirilməsini nəzərdə tutan müqavilələrin

E) Kirayə, icarə, lizinq və əvəzsiz istifadə müqavilələrinin

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

50. Geodeziya və xəritəçəkmə, geologiya və mineral ehtiyatlar, ekologiya və təbiətdən istifadəyə nəzarət, standartlaşdırma, metrologiya və hidrometerologiya üzrə dövlət orqanlarının və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın arxiv sənədləri müvafiq icra hakimiyyəti orqanlarının icazəsi ilə həmin təşkilatlarda necə mühafizə olunur?

A) Müvəqqəti

B) Xüsusi qaydada

C) Məxfi rejimlə

D) Daimi

E) Müəyyən müddətdə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

51. Arxiv sənədlərinin məcmusu, onların komplektləşdirilməsini, uçotunu, mühafizəsini və istifadəsini həyata keçirən arxiv təşkilatları və ya idarələrin, müəssisələrin struktur bölmələri:

A) Arxiv sənədi

B) Arxiv

C) Arxiv fondu

D) Arxiv işi

E) Arxiv kolleksiyası

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

52. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na görə arxiv sənədlərinin arxivdə, muzeydə və kitabxanada müddətsiz mühafizəsi necə adlanır?

A) Arxiv sənədlərinin müvəqqəti mühafizəsi

B) Arxiv sənədlərinin müddətli mühafizəsi

C) Arxiv sənədlərinin daxili mühafizəsi

D) Arxiv sənədlərinin məhdud mühafizəsi

E) Arxiv sənədlərinin daimi mühafizəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

53. Dövlət və yerli özünüidarə orqanları, dövlət idarə, müəssisə və təşkilatları tərəfindən arxiv sənədlərinin "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"nda nəzərdə tutulmuş müddətdə mühafizəsi nə deməkdir?

A) Arxiv sənədlərinin müvəqqəti mühafizəsi

B) Arxiv sənədlərinin daxili mühafizəsi

C) Arxiv sənədlərinin daimi mühafizəsi

D) Arxiv sənədlərinin müddətsiz mühafizəsi

E) Arxiv sənədlərinin xüsusi mühafizəsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

54. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na müvafiq olaraq arxiv işi:

A) Tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin məcmusudur

B) Dövlət və cəmiyyət üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəddir

C) Arxivlərin komplektləşdirilməsi, mühafizəsi, uçotu və arxiv xidmətinin təşkilidir

D) Sənəd abidəsi kateqoriyasına aid edilmiş nadir və ya xüsusi tarixi-mədəni dəyəri olan arxiv sənəddir

E) Arxiv təşkilatları və ya idarələrin, müəssisələrin struktur bölmələridir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

55. Müvafiq qanunvericiliyə görə arxiv sənədlərinin mülkiyyətçisi kimdir?

A) Arxiv sənədləri üzərində sərəncamı qanunvericilikdə müəyyən olunmuş həddə həyata keçirən subyekt

B) Arxiv sənədləri üzərində məhdud sahiblik və isifadə, lakin tam sərəncam hüquqlarına malik subyekt

C) Arxiv sənədləri üzərində sahiblik, istifadə və sərəncam hüququna malik olan subyekt

D) Arxiv sənədləri üzərində məhdud sərəncam hüququna malik olan subyekt

E) Arxiv sənədləri üzərində yalnız sahiblik və istifadə hüququna malik olan subyekt

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

56. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən arxiv sənədi nədir?

A) Xalqın maddi və mənəvi həyatını əks etdirən, tarixi, elmi, iqtisadi, siyasi, sosial və mədəni dəyəri olan, Azərbaycan xalqının mədəni irsinin ayrılmaz hissəsi hesab edilən sənədlərin məcmusu

B) Mühafizə edilən və ya edilməli olan, informasiya daşıyıcısının növündən asılı olmayaraq dövlət, cəmiyyət və ya öz mülkiyyətçisi üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəd

C) Arxiv sənədlərinin məcmusu, onların komplektləşdirilməsi, uçotu, mühafizəsi və istifadəsini həyata keçirən arxiv təşkilatlarının struktur bölmələri

D) Tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin məcmusu, həmçinin arxivlərin mühafizəsi, uçotu və arxiv xidmətinin təşkili

E) Müəyyənləşdirilmiş qaydada sənəd abidəsi kateqoriyasına aid edilmiş nadir və ya xüsusi tarixi-mədəni dəyəri olan arxiv sənədi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

57. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən arxiv fondu nədir?

A) Arxiv sənədlərinin arxivdə, muzeydə və kitabxanada müddətsiz mühafizəsi

B) Arxivlərin komplektləşdirilməsi, mühafizəsi, uçotu və arxiv xidmətinin təşkili

C) Arxiv işini həyata keçirən dövlət müəssisəsi

D) Dövlət, cəmiyyət və ya öz mülkiyyətçisi üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəd

E) Tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin məcmusu

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

58. Qanunvericiliyə görə Milli arxiv fondu dedikdə nə başa düşülür?

A) Növündən, yarandığı və saxlandığı yerdən və mülkiyyət formasından asılı olmayaraq, xalqın maddi və mənəvi həyatını əks etdirən, tarixi, elmi, iqtisadi, siyasi, sosial və mədəni

dəyəri olan, Azərbaycan xalqının mədəni irsinin ayrılmaz hissəsi hesab edilən sənədlərin məcmusu

B) Dövlət və yerli özünüidarə orqanları, dövlət idarə, müəssisə və təşkilatları tərəfindən arxiv sənədlərinin "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"nda nəzərdə tutulmuş müddətdə mühafizəsi

C) Arxiv sənədlərinin məcmusu, onların komplektləşdirilməsini, uçotunu, mühafizəsini və istifadəsini həyata keçirən arxiv təşkilatları və ya idarələrin, müəssisələrin struktur bölmələri

D) Mühafizə edilən və ya edilməli olan, informasiya daşıyıcısının növündən asılı olmayaraq dövlət, cəmiyyət və ya öz mülkiyyətçisi üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəd

E) Tarixi və məntiqi baxımdan bir-biri ilə bağlı olan arxiv sənədlərinin məcmusu, həmçinin arxivlərin mühafizəsi, uçotu və arxiv xidmətinin təşkili

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

59. "Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının Qanunu"na görə sənəd abidəsi:

A) Müəyyənləşdirilmiş qaydada sənəd abidəsi kateqoriyasına aid edilmiş nadir və ya xüsusi tarixi-mədəni dəyəri olan arxiv sənədi

B) Arxiv sənədləri üzərində tam həcmdə sahiblik, istifadə və sərəncam hüququna malik olan subyekt

C) Xalqın maddi və mənəvi həyatını əks etdirən, tarixi, elmi, iqtisadi, siyasi, sosial və mədəni dəyəri olan sənədlərin məcmusu

D) Arxiv sənədlərinə sahiblik və istifadə hüququnu tam, onlar üzərində sərəncamı qanunvericilikdə müəyyən olunmuş həddə həyata keçirən subyekt

E) Dövlət, cəmiyyət və ya öz mülkiyyətçisi üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəd

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

60. Qanunvericiliyə görə arxiv sənədlərinin müvəqqəti mühafizəsi nə deməkdir?

A) Arxiv sənədlərinə sahiblik və istifadə hüququnu tam həcmdə, onlar üzərində sərəncamı qanunvericilikdə müəyyən olunmuş həddə həyata keçirən subyekt

B) Xalqın maddi və mənəvi həyatını əks etdirən, tarixi, elmi, iqtisadi, siyasi, sosial və mədəni dəyəri olan, Azərbaycan xalqının mədəni irsinin ayrılmaz hissəsi hesab edilən sənədlərin məcmusu

C) Dövlət və yerli özünüidarə orqanları, dövlət idarə, müəssisə və təşkilatları tərəfindən arxiv sənədlərinin müvafiq Qanunda nəzərdə tutulmuş müddətdə mühafizəsi

D) Növündən, yarandığı və saxlandığı yerdən və mülkiyyət formasından asılı olmayaraq, arxiv sənədlərinin arxivdə, muzeydə və kitabxanada müddətsiz mühafizəsi

E) Mühafizə edilən və ya edilməli olan, informasiya daşıyıcısının növündən asılı olmayaraq dövlət, cəmiyyət və ya öz mülkiyyətçisi üçün tarixi, elmi, mədəni əhəmiyyət kəsb edən sənəd

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

61. Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən nə ilə müəyyən edilir?

A) Protokolla

B) Əsasnamə ilə

C) Sərəncamla

D) Təlimatla

E) Aktla

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

62. Arxiv sənədlərinə sahiblik və istifadə hüququnu tam həcmdə, onlar üzərində sərəncamı qanunvericilikdə müəyyən olunmuş həddə həyata keçirən subyekt kimdir?

A) Arxivçi

B) Arxiv sənədlərinin sahibi

C) Arxiv müdiri

D) Arxiv mütəxəssisi

E) Arxiv sənədlərinin mülkiyyətçisi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

63. Aşağıdakılardan hansı arxiv işi sahəsində dövlətin vəzifələrindən deyildir?

A) Arxiv fondlarının və dövlət arxiv sənədlərinin komplektləşdirilməsi, uçotu, mühafizəsi, istifadəsi və bu sənədlərlə bağlı mülkiyyət məsələlərinin tənzimlənməsi

B) Arxiv fondu sənədlərinin komplektləşdirilməsi, uçotu, mühafizəsi və onlardan istifadə qaydalarına əməl olunmasına nəzarət

C) Arxiv işi sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, arxiv işinin təşkilinin vahid prinsiplərinin müəyyən olunması

D) Xarici ölkələrin arxivlərində saxlanılan, Azərbaycanın tarixinə və mədəniyyətinə aid olan sənədlərin həmin ölkələrin xüsusi arxivlərində saxlanılmasına nəzarət

E) Arxiv fondu sənədlərinin Azərbaycan Respublikasından müvəqqəti olaraq xaricə aparılması ilə əlaqədar məsələlərin tənzimlənməsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

64. Xarici ölkələrin arxivlərində saxlanılan, Azərbaycanın tarixinə və mədəniyyətinə aid olan, xalqın maddi və mənəvi həyatını əks etdirən sənədlərin (onların surətlərinin) Azərbaycan Respublikası dövlət arxivlərinə gətirilməsi, uçotu və mühafizəsinə nəzarət arxiv işi sahəsində dövlətin:

A) Vəzifəsidir

B) Funksiyasıdır

C) Mənbəyidir

D) Hüquqdur

E) Prinsipidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

65. Milli arxiv fondunun tərkibinə daxil edilmiş və dövlət qeydiyyatına alınmış qeyri-dövlət arxivlərinin və arxiv sənədlərinin, eləcə də sənəd kolleksiyalarının mülkiyyətçiləri öz arxivlərini mühafizə, bərpa və sənədlərin surətlərinin çıxarılması üçün hara verə bilərlər?

A) Xüsusi arxivlərə

B) Qeyri-dövlət arxivlərinə

C) İdarə arxivlərinə

D) Bələdiyyə arxivlərinə

E) Dövlət arxivlərinə

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

66. Azərbaycan Respublikasında arxiv işinin həyata keçirilməsi, Milli arxiv fondunun formalaşdırılması, mühafizəsi və istifadəsi məqsədi ilə arxiv və kargüzarlığın vahid dövlət sistemini birləşdirən nə yaradılır?

A) Xüsusi arxiv təşkilatı

B) Dövlət arxiv xidməti

C) Milli arxiv fondu

D) Mərkəzləşdirilmiş arxiv və kargüzarlıq bölməsi

E) Kargüzarlıq xidməti

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

67. Təsadüfən aşkar edilmiş və ya tapılmış arxiv sənədləri və sənəd kolleksiyaları barədə onu tapan şəxs tərəfindən dərhal məlumat verilməlidir:

A) İdarə rəhbərinə

B) Yerli özünüidarəetmə orqanına

C) Müvafiq struktur bölməyə

D) Məhkəməyə

E) Müvafiq icra hakimiyyəti orqanına

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

68. Milli arxiv fondunun külliyyatı üçün müvafiq məlumatları hər il müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanına hansı subyekt təqdim etməlidir?

A) Azərbaycan Respublikasının fiziki şəxsləri

B) Azərbaycan Respublikasının yerli özünüidarəetmə orqanları

C) Azərbaycan Respublikasının hüquqi şəxsləri

D) Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri

E) Azərbaycan Respublikasının vətəndaşları

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

69. Ölkəmizdə dövlət arxiv fondunun sənədləri hansı mülkiyyətin obyekti kimi mühafizə olunur?

A) Bələdiyyə

B) Xüsusi

C) Qarışıq

D) Dövlət

E) Şəxsi

Testin çətinlik dərəcəsi: asan

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

70. Arxiv işinin idarə olunması ilə bağlı doğru mülahizə hansıdır?

A) Arxiv sənədlərinin və sənəd kolleksiyalarının saxlanılması, qeydiyyatı və ya onlardan istifadə olunması qaydalarına əməl edilməməsi qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur

B) Mühafizə müddətindən asılı olmayaraq dövlət arxiv fondu sənədlərindən istifadə qaydaları və şərtləri müəssisənin müvafiq struktur bölmələri tərəfindən müəyyən edilir

C) Dövlət büdcəsindən maliyyələşdirilən arxivlərin qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən daxil olan vəsaitlərinin yarısı dövlət büdcəsinə köçürülür

D) Arxivlər mülkiyyət formasından asılı olaraq dövlət büdcəsi, yerli büdcə, mülkiyyətçinin vəsaitləri hesabına və qarışıq formada maliyyələşdirilir

E) Milli arxiv fondu sənədlərinin istifadəsi zamanı müəlliflik hüququ barədə qanunvericiliyin tələbləri yerinə yetirilməməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: Milli arxiv fondu haqqında Azərbaycan Respublikasının 1999-cu il 22 iyun tarixli Qanunu

71. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a əsasən tabe təşkilatlarda kargüzarlığın aparılması qaydalarına riayət olunması üzərində nəzarətin həyata keçirilməsi vəzifəsini  hansı bölmələr icra etməlidir?

A) Həmin təşkilatların Ümumi şöbəsi

B) Həmin təşkilatların Daxili nəzarət şöbəsi

C) Həmin təşkilatların baş təşkilatları

D) Nazirlər Kabinetinin Sənədlərlə iş şöbəsi

E) Nazirlər Kabinetinin Ümumi şöbəsi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

72. Təşkilatın, öz vəzifələrini həyata keçirməsi ilə əlaqədar sənədləşdirmə və sənədlərlə işin təşkili üzrə fəaliyyəti müvafiq qanunvericilikdə necə adlanır?

A) Arxiv işi

B) Nəzarət

C) İnteqrasiya

D) Mübadilə

E) Kargüzarlıq

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

73. Azərbaycan Respublikasında kargüzarlıq xidmətinin əsas vəzifələri hansılardır?
1. Bütün təşkilatlarda kargüzarlığın aparılmasına nəzarət etmək
2. Sənədləri işlərin nomenklaturu üzrə formalaşdırmaq və arxivə təhvil vermək
3. Bəzi sənədləri qəbul etməkdən imtina
4. İcra edilmiş sənədləri struktur bölmələrindən tələb etmək
5. Sənədlərin surətlərini çıxarmaq, çoxaltmaq və stenoqrafiya işlərini həyata keçirmək
6. Sənədləri məhv etmək

A) 1, 2, 5

B) 2, 4, 5

C) 1, 2, 4

D) 2, 5, 6

E) 3, 5, 6

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat. AR Prezidentinin 2003-cü il 27 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

74. Mərkəzləşdirilməmiş kargüzarlıq sistemində sənədlərin qeydə alınmasını, rəsmiləşdirilməsini, işlərin formalaşdırılmasını həyata keçirən subyekt:

A) Nəzarət şöbəsi

B) Kargüzarlıq xidməti

C) Struktur bölmələri

D) Məxfi şöbə

E) Arxiv fondu

Testin çətinlik dərəcəsi: orta

